**Eldəniz Məzahir oğlu Məhərrəmov**
**i.f.d., dos.**
**Azərbaycan Kooperasiya Universiteti**
**E-mail: emeherremov79@mail.ru**
**UOT: 332:338.012; R15; R58**

# İqtisadi rayonlarda aqrar sahənin inkişafının metodoloji aspektləri

***Xülasə***

*Tədqiqatın məqsədi Azərbaycanda müasir dövrdə iqtisadi rayonların inkişafı proseslərində aqrar sahənin inkişaf etdirilməsinin metodoloji aspektlərinin müəyyənləşdirilməsi və bununla bağlı proseslərin baxılmasıdır. Bu məqsədlə iqtisadi rayonların inkişaf xüsusiyyətləri, problemlərinin açıqlanması və həlli yollarının müəyyənləşdirilməsi üzrə araşdırmalar aparılmışdır. Eyni zamanda, iqtisadi rayonlarda olan resurslardan çıxış etməklə, aqrar sahənin inkişaf etdirilməsinin prioritetləri üzrə mühüm məsələlər verilmişdir. Aqrar sahənin iqtisadiyyatın inkişafında və formalaşdırılmasında rolu baxılmışdır. Müasir dövrdə mövcud resurslardan və dövrün tələblərindən yanaşmaqla, aqrar sahənin inkişaf etdirilməsi üzrə metodoloji xüsusiyyətlər müəyyənləşdirilmiş və bununla bağlı meyarlar verilmişdir. Tədqiqatın metodologiyası baxımından məqalənin hazırlanması gedişində iqtisad elmində məlum olan iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, ümumiləşdirmə kimi metodlardan istifadə olunmuşdur. Digər tərəfdən, baxılan problemlər üzrə müxtəlif tədqiqatçıların əsərlərində yer almış elmi müddəalar, nəticələr də diqqətdə saxlanılmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən isə məqalədə yer almış, ümumi nəticələrdən istifadə etməklə ölkəmizin iqtisadi rayonlarının inkişaf proseslərinin planlaşdırılmasında, aqrar sahənin inkişaf etdirilməsi üzrə tədbirlərin görülməsində istifadə edilməsi imkanları vardır. Tədqiqatın nəticələri baxımından isə bu istiqamətdə zəruri tədbirlərin görülməsi və əldə olunmuş nəticələrdən istifadə etməklə, aqrar sahənin inkişafına imkan verən mexanizmlərin işlənməsi, həyata keçirilməsi və bu sahədəki resursların təsərrüfat və maliyyə dövriyyəsinə cəlb edilməsi ilə bağlı məsələlər diqqət çəkir. Tədqiqatın orijinallığı və elmi yeniliyi ilə bağlı qeyd etmək mümkündür ki, tədqiqatda verilmiş materiallar əsasən müasir dövrdə ortaya çıxan problemlər ətrafında aparılan tədqiqatlardan formalaşıb və bununla əlaqədar olaraq orijinallığı yüksəkdir. Digər tərəfdən, başlıca elmi yenilik kimi müasir dövrdə iqtisadi rayonlarda aqrar sahənin inkişafının metodoloji aspektlərinin müəyyənləşdirilməsinə yeni yanaşmaların təmin olunması və daha işlək səmərəli mexanizmlərin fəaliyyət üslublarının müəyyənləşdirilməsindən ibarətdir. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü aparılmışdır və işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Məqalədə bununla bağlı müəllif fikirləri verilmiş və həmin rayonlarda aqrar sahənin inkişafının intensiv təşkili, elmi əsaslar üzrə qurulması, o cümlədən "ağıllı" texnologiyalar əsasında inkişaf prioritetlərinin vacibliyi əsaslandırılmışdır. Baxılan problemlər üzrə ümimiləşdirmələr aparılmış, tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

***Açar sözlər:*** *iqtisadi rayonlar, aqrar sahə, aqrar sahənin inkişafı, aqrar sahənin inkişafının metodoloji aspektləri, aqrar sahənin inkişaf perspektivləri, iqtisadi rayonların inkişafında metodoloji aspektlər.*

## Giriş

İqtisadi rayonların formalaşması və inkişaf etdirilməsinin metodoloji xüsusiyyətləri, iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının təmin olunması, burada olan resurslardan səmərəli istifadə edilməsi və onların müəyyən mənada iqtisadiyyat dövriyyəsinə cəlb

edilməsi, iqtisadiyyat quruculuğunda bu resurslardan istifadə olunması məsələləri bir qayda olaraq kompleks və sistemli yanaşmanı tələb edir. Bu baxımdan, həmin məsələlərin planlı şəkildə öyrənilməsi və zəruri məsələlərin nəzərə alınması, eyni zamanda yaxın orta və uzaq perspektiv postulatlar nəzərə alınmaqla, proqnozlaşdırmanın aparılması kifayət qədər əsaslandırılmış maliyyə mexanizmlərinin işlənib tətbiq edilməsi vacib şərtlərdəndir. Bu istiqamətdə daha məqsədli tədbirlərin həyata keçirilməsi və eyni zamanda regionda mövcud olan təbii ehtiyatlardan, yeraltı və yerüstü sərvətlərdən, xüsusilə əhalinin məşğulluğuna imkan verən sahələrin davamlı şəkildə inkişaf etdirilməsindən ötrü vacib piroritet fəaliyyət istiqamətlərinin səmərəli təşkili tələb olunur [1]. Digər tərəfdən, regionda əmək resurslarından, mövcud məhsuldar qüvvələrdən, onların səmərəli yerləşdirilməsindən, regionun maliyyə və vergi daxilolmalarının, maliyyə mənbələrinin formalaşdırılması bilavasitə asılıdır. Məlumdur ki, Azərbaycanda ölkə regionlarının inkişaf etdirilməsi üçün məqsədli beş illik proqramlar fəaliyyət göstərir və hazırda 2019-2023-cü illəri əhatə edən IV Dövlət Proqramı həyata keçirilməkdədir. Bu proqramların hər birinin reallaşdırılması üçün dövlət büdcəsindən və müxtəlif mənbələrdən, o cümlədən Milli Sahibkarlığın İnkişaf Fondundan və digər güzəştli dövlət mexanizmi vasitələrindən fəal şəkildə istifadə olunur. Kənd təsərrüfatı və bütövlükdə aqrar sahənin inkişaf etdirilməsinə yönəlik olan 30-dan çox subsidiya növü fəaliyyət göstərir və subsidiyaların icrası üzrə mexanizmlər vardır. Digər tərəfdən, son bir il ərzində mühüm qida məhsulu olan ərzaq buğdasının istehsalı və onun ehtiyatlarının yaradılması istiqamətində görülən tədbirlər və bununla bağlı yeni subsidiya mexanizmləri işlənilmişdir. Bir sözlə, dövlət tərəfindən müxtəlif sahələrdə sahibkarlıq fəaliyyətinin təşviqi, biznes subyektlərinin inkişafı üçün əlverişli şəraitin yaradılması, güzəştli kreditlərin verilməsi və vergi, gömrük güzəştləri, güzəştli qiymətlərlə kənd təsərrüfatı gübrələri və kənd təsərrüfatı texnikası, dövlət tərəfindən əsaslı vəsait qoyuluşu hesabına regionlarda su sistemlərinin və suvarma kanallarının istismara verilməsi və müxtəlif təsərrüfat, texniki təminat məsələlərinin həll olunmasıda ümumilikdə regionların və iqtisadi rayonların inkişafını şərtləndirən əsas bazis amillərdəndir.

**Qlobal transformasiya şəraitində regionlarda aqrar sahənin inkişafına yanaşmalar**

Bütün bunlara baxmayaraq məlumdur ki, region əhalisinin müəyyən bir hissəsi xüsusilə gənclər təhsil almaq üçün iri şəhərlərə və başqa ölkələrə getməyə məcburdurlar, yəni ali təhsil alandand sonra, doğulduqları regiona qayıtmamaları gənclərin miqrasiyasına səbəb olur və buna görə də həmin gənclərin ali təhsil aldıqdan sonra doğma yerlərə qayıtması və daha məhsuldar çalışması tədbirlərinin görülməsi üçün əsaslı zəminlər yaradılmalıdır. Yəni, kənd və qəsəbələrimizin siması, görünüşü, orada olan sosial və istehsal infrastruktur məsələləri, emal müəssisələrinin yaradılması sistemli şəkildə baxılmalıdır. İnsan yaşadığı regionda özünü komfort şəkildə hiss etməli, həyat şəraitinin yaxşılaşdırılması üçün layiqli iş yerləri ilə təmin olunmalı, öz bacarığını, bilik və istedadını nümayiş etdirmək üçün müvafiq şəraitə və iş şəraitinə nail olmalıdır. Lakin heç də bunlar həmişə mümkün deyildir. Bundan əlavə, iqtisadi rayonların maliyyə resursları kifayət qədər məhdud olur və iri investisiya-innovasiya layihələrinin həyata keçirilməsi üçün adətən maliyyə resursları çatışmır. Bunlar bilavasitə dövlət büdcəsi hesabına və yaxud da məqsədli şəkildə yaradılan müştərək müəssisələrin, özəl subyektlərin vasitəsilə həyata keçirilir. Buna görə də əsas məsələlərdən biri iqtisadi rayonlarda investisiya mühitinin cəlbediciliyinin artırılmasıdır. O regiondakı investisiya fəaliyyəti üçün lazimi zəruri addımlar atılır və regionda özəl sektor subyektlərinin səmərəli fəaliyyət göstərmələri üçün müvafiq şərait yaradılır və maliyyə resurslarının hərəkətində, məhsuldar qüvvələrin daha səmərəli yerləşdirilməsində müxtəlif prosedurlarda olan

bürokratik amillərin aradan qaldırılmasında tədbirlər görülür, belə olduğu təqdirdə regionda, müəyyən bir iqtisadi rayonda özəl sektor subyektlərin fəaliyyəti güclənir və sağlam rəqabət mühiti formalaşır. Bunlar isə öz növbəsində əhalinin gəlirlərinin artmasına, yeni maliyyə mənbələrinin formalaşdırılmasına, maliyyə və təsərrüfat dövriyyəsinə cəlb olunmasına, resurslardan səmərəli istifadə edilməsinə əlavə imkanlar yaradır. Eyni zamanda, iqtisadi rayonların fəaliyyətinin və iqtisadi rayonlarda aqrar sahənin inkişaf etdirilməsi üçün müəyyən tədbirlərin görülməsinə yönəlik olan metodoloji üslublar və yanaşmalar dövrün tələblərin nəzərə almalı, müasir inkişaf drayverləri üzərində formalaşdırılmalıdır.

Əlbəttə, inzibati amiranə sovet dövründən qalma təsərrüfat formaları və metodlarının yenilənməsi, bazar iqtisadiyyatına uyğunlaşdırılması, "ağıllı" texnologiyalardan daha fəal şəkildə istifadə edilməsi və yüksək texnologiyalar əsaslı təsərrüfatların yaradılması, bütün bunlar son nəticədə regionda resurslardan maksimum səmərəli istifadə etməyə imkan verən və region əhalisinin həyat şəraitinin yaxşılaşdırılması üçün əlavə motivasiya yaradar. Digər tərəfdən, regionda yerləşmiş resurslardan o cümlədən əmək ehtiyatlarından məqsədli şəkildə və səmərəli olaraq istifadə edilməsində cəmiyyət və dövlət arasında olan münasibətlərin formalaşdırılması, özəl sektor subyektləri ilə dövlət strukturları, yerli hakimiyyət orqanları arasında olan əlaqələrin və münasibətlərin şəffaf olması, məmur özbaşınalığına yol verilməməsi, rüşvətxorluq və korrupsiya əməllərinə qarşı kəskin mübarizənin aparılması tələb olunur [2]. Hesabatlılığın və şəffaflığın təmin edilməsi, sağlam rəqabət mühitinin yaradılması, qanunvericiliyin qorunması özəl sahibkarlığın inkişaf etdirilməsi üçün əsas amillərdən hesab olunur. Yəni, sağlam rəqabət mühiti olarsa və hər bir özəl sektor subyektinin fəaliyyəti üçün müvafiq hüquqları pozulmayan bir şərait yaradılarsa, belə olduğu halda, şübhəsiz, bazar iqtisadiyyatı elementlərinin inkişaf etdirilməsi, bazar iqtisadiyyatının bərqərar olması və nəticədə sağlam rəqabət mühitinin formalaşdırılması da mümkün olar. Bütün bunlar iqtisadi rayonların resurslarından səmərəli istifadə etməklə bərabər, bu rayonda sosial-iqtisadi inkişafın sabitliyini təmin etməyə imkan verər.

İşğaldan azad olunmuş ərazilərdə yeni yaradılmış iqtisadi rayonlarda analoji yanaşmalara münasibət tamamilə fərqlidir. Belə ki, aqrar sahənin inkişafında, kənd təsərrüfatının müxtəlif məhsullarının yetişdirilməsində və emalında əsas etibarı ilə yüksək texnologiyalardan və innovasiyalardan, o cümlədən "ağıllı" texnologiyalardan və idarəetmə sistemlərindən istifadəyə başlanılmışdır [3]. Aqrar sahənin müasir texnologiyalar və idarəetmə funksiyaları əsasında inkişafı, ölkəmizdə iqtisadi rayonların potensialının reallaşdırılmasında, regional iqtisadiyyat strukturunun diversifikasiyalaşdırılmasında, rəqabətqabiliyyətli məhsulların istehsal olunmasında önəmli rol oynayacaqdır [4]. Bu proseslər ölkənin iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının yeni çağırışlara adekvat olaraq təmin edilməsinə, əhalinin mühüm ərzaq məhsulları ilə tələbatının daha dolğun ödənilməsinə, ölkənin ərzaq və qida təhlükəsizliyi problemlərinin həllinə əlavə stimullar verəcəkdir. Digər tərəfdən, ölkə Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilmişdir [5]. Bu mühüm sənəddə ölkə iqtisadiyyatının prioritet və perspektivli sahələrindən biri kimi – aqrar sahənin inkişafı ilə bağlı başlıca hədəflərə çatmaq üçün tədbirlər kompleksi işlənilmiş və fəaliyyət strategiyası müəyyənləşdirilmişdir.

Azərbaycan son onillikdə ölkənin dünya səviyyəsində retinqinin artırılması, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atmışdır. Ölkəmiz regionun güclü və dinamik inkişaf edən iqtisadi inkişaf modelinə sahib olmaqla yanaşı, həm də iqtisadi artım mənbələrinin formalaşdırılmasında və yenilənməsində zəruri tədbirlər görə

bilmiş, strateji hədəflər müəyyənləşdirilmiş və onların icrası xeyli sürətləndırılmişdir. Son on il ərzində ölkəmizdə dünyada baş verən qlobal təlatümlərdən və təyziqlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün tədbirlərin görülməsi istiqamətində önəmli addımlar atılmışdır. Bunun başlıca məqsədlərindən biri ölkədə sosial-iqtisadi inkişafın tarazlaşdırılması tədbirlərinin görülməsi təmin olunmuş, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması üçün əlavə tədbirlərin həyata keçirilmiş və eyni zamanda, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün zəruri addımların atılması lazım gəlmişdir. Bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi iqtisadi islahatlar, qlobal təsirlərə qarşı ölkə iqtisadiyyatının immunitetinin formalaşdırılmasına imkan vermiş və milli iqtisadiyyatın özünün inkişafetmə resurslarından daha səmərəli istifadə edilməsi üçün əsaslı zəmin yaratmışdır [5].

Son illərdə baş verən hadisələr sırasında elə bir məqamlar vardır ki, bunlar ölkəmizin tarixində şanlı səhifələrdən hesab olunur və tarixi əhəmiyyət kəsb edir. Belə hadisələrdən biri 2020-ci ilin sentyabrın 27-dən başlayan və 44 gün davam edən Böyük Qarabağ Zəfərindən irəli gələn yeni obyektiv reallıqlardır. Yəni, milli ordumuz Ali baş komandanın rəhbərliyi altında torpaqlarımızı işğaldan azad etdikdən sonra bu regionda yeni iqtisadi inkişaf implusları formalaşdırılmışdır. Dövlət başçısının müvafiq sərəncamlarına əsasən regionlarımızın sosial-iqtisadi inkişafının daha da intensivləşdirilməsi, regional səviyyədə hökümət strukturlarının fəaliyyətinin yaxşılaşdırılması və daha çevik edilməsi, səmərəli sosial-iqtisadi inkişaf mexanizmlərinin işlənilməsi üçün əlavə tədbirlər görülmüşdür. Nəticədə ölkədə son 20 il ərzində regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün həyata keçirilən davamlı və məqsədli regional inkişaf proqramlarının, yeni mexanizmlərinin işlənməsi və regionların təbii, həm də iqtisadi resurslarından səmərəli istifadə etmək üçün daha məhsuldar mexanizmlərin tətbiq olunması üçün rayonların yeni bölgüsü aparılmışdır. Bunlar Böyük Qarabağ Zəfərindən sonra torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar ortaya çıxan yeni reallıqlarla bağlı olmuşdur. Azərbaycanda əvvəllər mövcud olan 12 iqtisadi rayon əvəzinə 14 iqtisadi rayon yaradılmış və işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları formalaşdırılmışdır [6]. Artıq həmin iqtisadi rayonların inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Hər iki rayonun idarəetmə forması müəyyənləşdirilmiş və müasir dövrün çağdaşlarına cavab verən yeni idarəetmə formaları işlənib hazırlanmışdır. Ölkə Prezidentinin həmin ərazilərdə xüsusi nümayəndəliklərinin təsis edilməsi burada aparılan sosial-iqtisadi inkişaf proseslərinin, dirçəldilmə tədbirlərinin və bununla bağlı həyata keçirilən infrastruktur layihələrinin reallaşdırılması istiqamətində daha məhsuldar fəaliyyətə imkan verir.

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf impulsları**

Qeyd edək ki, Qarabağ iqtisadi rayonunun resursları və bu regionun ölkə iqtisadiyyatına reinteqrasiya olunması məsələləri xüsusi diqqət mərkəzindədir [7]. Qarabağın tarixi iqtisadi inkişaf qanunauyğunluqlarından, onun xüsusiyyətlərindən, xüsusilə bu iqtisadi rayonda olan təbii və iqtisadi resurslardan, mineral ehtiyatlardan, turizm-rekreasiya ehtiyatlarından rasianal şəkildə istifadə edilməsi üçün ardıcıl tədbirlər görülməkdədir. Qarabağın mərkəzi, Qafqazın incisi və hər bir Azərbaycanlının qürur yeri olan Şuşanın iqtisadiyyatının formalaşdırılması, onun strukturunun təşkili əsas etibarilə mədəniyyət sahələrinin inkişaf etdirilməsi hesabına baş verəcəkdir [8]. Bir sözlə, Azərbaycanda sosial-iqtiadi inkişafın təmin edilməsində, yeni fəaliyyət istiqamətlərinin, o cümlədən, mədəniyyətin iqtisadiyyatı formalaşdırılmaqdadır. Mədəniyyət sahələrinin səmərəli təşkili və istifadə edilməsi hesabına əlavə dəyər yaradan iqtisadiyyat sahələrinin formalaşdırılması, əlavə maliyyə mənbələrinin formalaşdırılması, yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun təmin edilməsi üçün önəmli addımlar

atılması tədbirləri görülməkdədir. Hesab edirik ki, Qarabağ iqtisadi rayonunda sosial infrastrukturun yaradılması kifayət qədər aktiv fazaya keçmişdir. Yaşayış massivlərinin salınması, Şuşa kimi qədim və çox mürəkkəb, həm də milli ornamentə malik olan, milli koloritlər üzərində yeni yaşayış massivinin salınması, qədim abidələrin, ilk növbədə, tarixi strateji əhəmiyyət kəsb edən abidələrin bərpa edilməsi istiqamətində geniş həcmli işlər görülür. Bundan əlavə, Ağdam şəhərinin sosial-iqtisadi inkişafının təmin edilməsi üçün Ağdam şəhərinin baş planı təsdiq olunmuş və yüz minlik şəhər infrastrukturunun yaradılması üçün önəmli addımlar atılmışdır. Artıq Ağdamda məktəb, səhiyyə, təhsil infrastrukturunun yaradılması və yaşayış massivinin salınması, şəhərin mərkəzi hissəsinin tikilməsi sürətlə davam edir və burada ölkə Prezidentin Qarabağ üzrə nümayəndəliyinin müasir ofisinin fəaliyyətə başlamışdır. Digər tərəfdən, Qarabağda istehsal infrastrukturunun yaradılması və burada mövcud olan resurslardan daha səmərəli istifadə edilməsi, emal sahələrinin təşkili üçün Ağdam Sənaye Parkı təsis edilmişdir və artıq burda rezidentlər qeydə alınmaqdadır, müəssisələr istismar üçün hazırlanmaqdadır. Ağdam Sənaye Parkının fəaliyyət göstərməsi, regionda olan təbii və iqtisadi resurslardan məhsuldar istifadə etməyə, xüsusilə emalyönlü müəssisələr şəbəkəsinin yaradılmasına və bu sahələrə investisiyaların cəlb edilməsinə ciddi təkan verəcəkdir.

Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsi və burada beynəlxalq uçuşların həyata keçirilməsi, regionun sosial-iqtisadi inkişafında tarixi hadisədir. Hava limanının və müasir dünya standartlarına uyğun infrastrukturun formalaşması regiona daha çox investorların gəlməsi üçün cəlbedici investisiya mühitinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, iş adamlarının, beynəlxalq ekspertlərin, dünya Azərbaycanlılarnın Qarabağa səfər etmələrində bu beynəlxalq hava limanının böyük əhəmiyyəti vardır. Bu istiqamətlərdə intensiv uçuşlar həyata keçirilməkdədir və Füzuli Beynəlxalq Hava Limanının fəaliyyətə başlaması həm də regionun sosial-iqtisadi inkişafında yeni fəaliyyət istiqamətlərinin formalaşdırılmasına, nəqliyyat-logistika infrastrukturunun inkişafına, sənaye istehsal infrastrukturunun yaradılmasına və yüksək texnologiyalar əsaslı iş yerlərinin təşkilinə, əhalinin həyat səviyyəsinin və məşğulluğunun gücləndirilməsinə təkan verməkdədir. Füzuli rayonunda Dövlətyarlı kəndində 1000 evdən ibarət “Ağıllı kənd” layihəsinin icrasına başlanılmışdır və bu cür layihələr artıq Şərqi Zəngəzur iqtisadi rayonunda 3 Ağalı kəndlərinin bazasında həyata keçirilmişdir. Sevindirici haldır ki, insanlar doğma yurdlarına qayıtmaqdadır. Bütün bunlar tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhalinin məskunlaşması, doğma yerlərinə qayıtması və sosial-iqtisadi inkişaf proseslərində fəal iştirak etməsilə bağlı yeni obyektiv reallıqlar yaratmaqdadır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial-iqtisadi inkişafın surətləndirilməsində bu iqtisadi rayonlar üçün ənənəvi olan iqtisadiyyat sahələrinin, xüsusilə kənd təsərrüfatının və bütövlükdə aqrar sektorun mühüm istiqamətlərinin inkişafı və genişləndirilməsi perspektiviləri diqqət çəkir. Hələ keşmiş SSRİ dövründə Qarabağda çoxlu sayda kənd təsərrüfatı məhsulları, ilk növbədə ərzaqlıq buğda, pambıq, üzüm yetişdirilirdi. Heyvandarlığın demək olar ki, bütün seqmentləri üzrə geniş fəaliyyət göstərilirdi. Xüsusilə, Kəlbəcər və Laçın rayonlarında heyvandarlığın, arıçılığın, tütünçülüyün inkişaf etdirilməsi üçün güclü potensial var idi və bu rayonlarda yaylaqların, təbii otlaqların mövcudluğu heyvandarlığın inkişafı üçün ciddi əsaslar verir. Eyni zamanda, üzümçülüyün, baramaçılığın inkişafı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyat strukturunun formalaşmasında ciddi önəm kəsb etmək potensialına malikdir. Hazırkı şəraitdə, fikrimizcə, bu iqtisadi rayonlarda tikinti materialları sənayesinin güclü şəkildə inkişaf etdirilməsi

zəruridir. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf proseslərinin həyata keçirilməsində uzun illər geniş çeşiddə və həcmdə tikinti materialları tələb olunacaqdır. Buna görə də regionda mümkün olan ərazilərdə tikinti materialları sənayesinə mənsub olan müəssisələrin təşkil edilməsini vacib hesab edirik [9].

**Nəticə**

Yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosisal-iqtisadi inkişafının təmin edilməsi, bütövlükdə Azərbaycanın sosial iqtisadi inkişafına əlavə qatqılar verəcək və bu regionların ölkə iqtisadiyyatına reinteqrasiyası nəticəsində ölkəmizin iqtisadi gücü artacaq və rəqabət qabiliyyəti daha da yüksələcəkdir. Bununla bağlı bir qrup tədbirlərin görülməsini məqsədəuyğun sayırıq:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii və iqtisadi resurslarından istifadə edilməsi proseslərinin maksimum intensivləşdirilməsi tələb olunur;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ənənəvi iqtisadiyyat sahələri ilə yanaşı, yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin formalaşdırılması prosesləri surətləndirilməlidir;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının milli iqtisadiyyata reinteqrasiyasının daha səmərəli təmin edilməsi üçün dövlət dəstəyi mexanizmləri, "dövlət-özəl sektor əməkdaşlığı", bu regionlarda sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, xarici investorların regiona dəvət edilməsi üçün əlavə tədbirlərin görülməsi və eyni zamanda, regionun sosial-iqtisadi inkişafının intensiv şəkildə təmin edilməsi tədbirlərinə zərurət qalmaqdadır.

**Ədəbiyyat**

1. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinin sosial-iqtisadi inkişafinin strateji aspektləri / Qərbi Kaspi Universitetində Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 11 may 2022-ci il.
2. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // «Вопросы истории», Москва, 2022, № 6. – с. 210-216.
3. "Умные села" преобразят сельскую жизнь в Азербайджане - июль 5, 2022 - https://ru.eureporter.co/world/azerbaijan-world/2022/07/05/smart-villages-set-to-transform-rural-living-in-azerbaijan.
4. Самсонова, Т. Агропром в приоритете – в Карабахе появятся аграрные производства. 2022.01.26. https://m.zerkalo.az/agroprom-v-prioritete-v-karabahe-poyavyatsya-agrarnye-proizvodstva/.
5. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 iyul 2022-ci il.
6. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi nəzəri jurnal. Bakı, 2021, №4. – s.67-72.
7. Ağdam iqtisadiyyatı: reallıqlar, perspektivlər. 27.11.2020. https://www.azerbaijan-news.az/view-205536/agdam-iqtisadiyyati-realliqlar-perspektivler.
8. Алиев, Ш.Т. Стратегическая важность возрождения Шуши в интенсификации социально-экономического развития Карабахского экономического района / Материалы VII Международная Научно-Практическая Конференция «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации», Москва, 30 июня 2022. - с.321-329.

9. Cəfərov, C. Zəngəzur dəhlizində region ölkələrinin də marağı yüksəkdir. İİTKM analitiki, 07 avqust 2021. https://ereforms.gov.az/az/ekspert-yazilari/zengezur-dehlizinde-region-olkelerinin-de-maragi-yuksekdir-59.

***Эльдениз Мазахир оглы Магеррамов***
***д.ф.э., доц.***
***Азербайджанский Университет Кооперации***
***E-mail: emeherremov79@mail.ru***

***Методологические аспекты развития аграрной сферы в экономических районах***

***Резюме***

*Цель исследования - определение и рассмотрение методологических аспектов развития аграрной сферы в экономических районах в современном периоде развития экономики Азербайджана. С этой целью раскрыта сущность имеющихся проблем и даны материалы по определению путей их решения. Одновременно рассмотрены важные вопросы по приоритетным направлениям развития аграрной сферы с учётом имеющихся ресурсов в экономических районах. Рассмотрена роль аграрной сферы в развитии и формировании экономики страны. Определены экономические особенности и критерии по развитию аграрной сферы с учётом ресурсов и требований нынешнего времени. Методология исследования состоит из общеизвестных экономических методов, в том числе, метода анализа, синтеза и обобщения. С другой стороны, использован ряд различных взглядов и научных трудов исследователей по вопросам развития аграрной сферы в экономических районах. Практическая значимость исследования объясняется возможностью и перспективностью использования полученных материалов и рассмотреных механизмов в планировании и развитии аграрной сферы в экономических районах. Результаты исследования - рассматриваются с точки зрения эффективности полученных научных результатов в разработке и реализации целевых программ, комплексных мероприятий в целью развития аграрной сферы в экономических районах страны. Оригинальность исследования и научная новизна заключается в комплексном рассмотрении проблем и современных концептуальных подходов по оценке роли аграрной сферы в развитии экономических районов. В качестве основной научной новизны рассматривается определение методологических аспектов аграрной сферы в экономических районах с учётом новых вызовов и разработки эффективных механизмов,а так же определении более рациональных способов в данном направлении. Рассмотрены стратегические аспекты развития экономических районов в Азербайджане с учётом двух вновь созданных экономических районов - Карабахского и Восточно-Зангезурского. Даны важнейшие направления и приоритеты создания новых технологий, в том числе "умных", с целью развития аграрного сектора в экономических районах страны. Даны рекомендации и предложения по рассматриваемым проблемам.*

***Ключевые слова:*** *экономические районы, аграрная сфера, развитие аграрной сферы, методологические аспекты развитие аграрной сферы, перспективы развития аграрной сферы, методологические аспекты в развитии экономических районов.*

**_Eldaniz Mazahir Maharramov_**
**_Associate professor, PhD in economics_**
**_Azerbaijan Cooperation University_**
**_E-mail: emeherremov79@mail.ru_**

**_Methodological aspects of the development of the agricultural sphere in economic areas_**

**_Summary_**

*The purpose of the research is to determine and consider methodological aspects of the development of the agricultural sphere in economic regions in the modern period of development of the Azerbaijani economy. To this end, the essence of the existing problems is disclosed and materials are given to determine ways to solve them. At the same time, important issues were considered in priority areas of agricultural development, taking into account the available resources in economic areas. The role of the agrarian sphere in the development and formation of the country's economy was considered. Economic features and criteria for the development of the agricultural sphere are determined, taking into account the resources and requirements of the present time. The research methodology consists of well-known economic methods, including the method of analysis, synthesis and generalization. On the other hand, a number of different views and scientific works of researchers on the development of the agrarian sphere in economic areas were used. The practical significance of a research is explained by the possibility and prospects of using the materials obtained and the mechanisms considered in the planning and development of the agricultural sector in economic areas. The results of the research are considered from the point of view of the effectiveness of the scientific results obtained in the development and implementation of targeted programs, complex measures in order to develop the agricultural sphere in the economic regions of the country. The originality of the research and scientific novelty consists in a comprehensive consideration of the problems and modern conceptual approaches to assess the role of the agrarian sphere in the development of economic regions. As the main scientific novelty, the definition of methodological aspects of the agricultural sphere in economic areas is considered, taking into account new challenges and the development of effective mechanisms, as well as the definition of more rational ways in this direction. Strategic aspects of the development of economic regions in Azerbaijan were considered taking into account two newly created economic regions - Karabakh and East Zangezur. The most important directions and priorities for the creation of new technologies, including smart ones, are given in order to develop the agricultural sector in the economic regions of the country. Recommendations and suggestions on the issues under consideration are given.*

**_Key words:_** *economic regions, agrarian sphere, development of agrarian sphere, methodological aspects of development of agrarian sphere, prospects for development of agrarian sphere, methodological aspects in development of economic regions.*

**_Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov_**
**_Daxil olub: 07.11.2022._**
**_Çapa qəbul olunub: 15.11.2022._**